**AZƏRBAYCAN RESPUBLİKASI QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN KOLLEGİYASININ QƏRARI**

**№ 44**

**Bakı şəhəri** "16" 04 **2024-cü il**

**Türkiyə Respublikasının qida obyektləri üzrə təsdiq sisteminin ekvivalentliyinin qismən tanınması haqqında**

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 20.5-ci maddəsinə əsasən, xarici ölkələrdə fəaliyyət göstərən qida obyektlərinin təsdiqi və xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2442 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası" (bundan sonra – Qayda) ilə tənzimlənir.

Qaydanın 6.1-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı"nda müəyyən edilən məhsulların Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün həmin məhsulların istehsal və emal edildiyi qida obyektlərinin Azərbaycan Respublikasında qüvvədə olan texniki normativ hüquqi aktların tələblərinə uyğunluğunun təsbit edilməsi, ticarət tərəfdaşı olan ölkələrlə əməkdaşlığın artırılması və təkrarlanan prosedurların aradan qaldırılması məqsədilə xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyini tanıyır.

Qaydanın 6.3-cü bəndinə əsasən, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması zamanı əsas meyarlar qismində qida və yem məhsulları ilə bağlı ticarət dövriyyəsi zamanı müəyyən edilmiş qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinə uyğunsuzluqların statistikası, xarici ölkənin qida təhlükəsizliyi sisteminin, o cümlədən yoxlama və nəzarət sistemlərinin Azərbaycan Respublikasında tətbiq edilən sistemlə uyğunluğu və xarici ölkənin qida təhlükəsizliyi sisteminin Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Ümumdünya Səhiyyə Təşkilatının Kodeks Alimentarius Komissiyasının və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının standartlarına uyğunluğu nəzərə alınır.

Qeyd olunan meyarlar əsasında Türkiyə Respublikasının qida obyektləri üzrə təsdiq sistemi Agentliyin aidiyyəti struktur bölmələri tərəfindən araşdırılmış, həmin ölkənin təsdiq sisteminə dair texniki normativ hüquqi aktların tələblərinin Azərbaycan Respublikasında bu sahədə qüvvədə olan texniki normativ hüquqi aktların tələblərinə uyğun olduğu müəyyənləşdirilmişdir.

Eyni zamanda, aparılan təhlillər nəticəsində Türkiyə Respublikasının qida obyektləri üzrə təsdiq sisteminin ekvivalentliyinin qismən tanınması məqsədəuyğun hesab edilmiş, bununla əlaqədar, həmin ölkədən qida və yem məhsullarının idxalı zamanı nəzərə alınması üçün "Türkiyə Respublikasının təsdiq sistemi ekvivalent hesab olunan qida obyektlərində emal və ya istehsal edilən məhsulların Siyahısı" hazırlanmışdır. Həmçinin həmin Siyahı üzrə qida və yem məhsullarının emal və ya istehsalı müəssisələrinin ekvivalentliyinin 2024-cü ilin 1 iyul tarixindən tanınması nəzərdə tutulmuşdur.

Qeyd olunanlara əsasən, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 20.5-ci maddəsini və Qaydanın 6.1-ci və 6.3-cü bəndlərini rəhbər tutaraq, Agentliyin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** Türkiyə Respublikasının qida obyektləri üzrə təsdiq sisteminin ekvivalentliyi 2024-cü ilin 1 iyul tarixindən etibarən qismən tanınsın və bununla əlaqədar, həmin ölkədən Azərbaycan Respublikasına qida və yem məhsullarının idxalı zamanı nəzərə alınması məqsədilə hazırlanmış "Türkiyə Respublikasının təsdiq sistemi ekvivalent hesab olunan qida obyektlərində emal və ya istehsal edilən məhsulların Siyahısı" təsdiq edilsin (*əlavə olunur*).

**2.** Agentliyin Aparatının Beynəlxalq əlaqələr və protokol şöbəsi Türkiyə Respublikasının qida obyektləri üzrə təsdiq sisteminin ekvivalentliyinin qismən tanınmasına dair qərar barədə 7 (yeddi) iş günü müddətində xarici səlahiyyətli qurumlara diplomatik kanallar vasitəsilə rəsmi məlumat verilməsini təmin etsin.

**3.** Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi Türkiyə Respublikasından idxal olunan qida və yem məhsullarına münasibətdə Qaydanın 6.9-cu bəndinə uyğun, habelə bu Qərarın 1-ci bəndi ilə təsdiq edilmiş "Türkiyə Respublikasının təsdiq sistemi ekvivalent hesab olunan qida obyektlərində emal və ya istehsal edilən məhsulların Siyahısı" əsasında nəzarətin davamlı icrasını təmin etsin.

**4.** Agentliyin Kollegiyasının məsul katibi **Asif Əbdüləzimov** bu Qərarın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**5.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Agentliyin Kollegiyasının 2024-cü il 16 aprel tarixli 37 nömrəli iclas protokolu.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikası**
**Qida Təhlükəsizliyi Agentliyinin sədri** **Qoşqar Təhməzli**

Azərbaycan Respublikasının
Qida Təhlükəsizliyi Agentliyinin
Kollegiyasının 2024-cü il 16 aprel tarixli
44 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**Türkiyə Respublikasının təsdiq sistemi ekvivalent hesab olunan qida obyektlərində emal və ya istehsal edilən məhsulların**

**SİYAHISI**

| Təsdiq sisteminin ekvivalentliyi uyğun hesab edilən müəssisələr üzrə emal və ya istehsal edilən məhsullar | | |
|---|---|---|
| **Sıra №-si** | **Malların adları və ya kateqoriyaları** | **XİF MN üzrə kod** |
| | **Kənd təsərrüfatı heyvanlarının ətinin istehsalı ilə məşğul olan qida obyektləri** | |
| 1. | Təzə və ya soyudulmuş iribuynuzlu mal-qara əti; | 0201 |
| 2. | Dondurulmuş iribuynuzlu mal-qara əti; | 0202 |
| 3. | Təzə, soyudulmuş və ya dondurulmuş qoyun əti və ya keçi əti. | 0204 |
| | **Balıqçılıq məhsullarının istehsalı və emalı ilə məşğul olan qida obyektləri** | |
| 4. | Təzə və ya soyudulmuş balıq, 0304 mal mövqeyində təsnif edilən balıq filesi və başqa balıq əti istisna olmaqla; | 0302 |
| 5. | Dondurulmuş balıq, 0304 mal mövqeyindəki balıq filesi və digər balıq əti istisna olmaqla; | 0303 |
| 6. | Təzə, soyudulmuş və ya dondurulmuş balıq filesi və digər balıq əti (qiymə də daxil olmaqla): | 0304 |
| 7. | Qurudulmuş, duzlu və ya duzlu suya qoyulmuş balıq; hisə verilmə zamanı və ya sonra isti emala məruz qalmış və ya qalmamış hisə verilmiş balıq; | 0305 |
| 8. | Zirehli və ya zirehsiz, diri, təzə, soyudulmuş, dondurulmuş, qurudulmuş, duzlu və ya duzlu suya qoyulmuş xərçəngkimilər; zirehli və ya zirehsiz, hisə verilmədən əvvəl və ya hisə verilmə prosesində isti emala məruz qalmış və ya qalmamış hisə verilmiş xərçəngkimilər; qaynar suda və ya buxarda bişmiş, soyudulmuş və ya soyudulmamış, dondurulmuş və ya dondurulmamış, qurudulmuş və ya qurudulmamış, duzlu və ya duzsuz, duzlu suya qoyulmuş və ya qoyulmamış zirehli xərçəngkimilər; | 0306 |
| 9. | Çanaqda və ya çanaqsız, diri, təzə, soyudulmuş, dondurulmuş, qurudulmuş, duzlu və ya duzlu suya qoyulmuş molyusklar; çanaqda və ya çanaqsız, hisə verilmədən əvvəl və ya hisə verilmə prosesində isti emala məruz qalmış və ya qalmamış hisə verilmiş molyusklar; | 0307 |

| | | |
|---|---|---|
| 10. | Xərçəngkimilərdən və molyusklardan başqa, diri, təzə, soyudulmuş, dondurulmuş, qurudulmuş, duzlu və ya duzlu suya qoyulmuş su onurğasızları; xərçəngkimilərdən və molyusklardan başqa, hisə verilmədən əvvəl və ya hisə verilmə prosesində isti emala məruz qalmış və ya qalmamış, hisə verilmiş su onurğasızları; | 0308 |
| 11. | Balıqdan, xərçəngkimilərdən, molyusklardan və digər su onurğasızlarından qida üçün yararlı olan narın və qaba üyüdülmüş un və qranullar; | 0309 |
| 12. | Balıqdan və ya xərçəngkimilərdən, molyusklardan və ya digər su onurğasızlarından hazırlanmış ekstraktlar və şirələr; | 1603-dən |
| 13. | Hazır və ya konservləşdirilmiş balıq; nərə balığı kürüsü və onun dənəciklərindən hazırlanmış əvəzedicilər; | 1604 |
| 14. | Hazır və ya konservləşdirilmiş xərçəngkimilər, molyusklar və digər su onurğasızları; | 1605 |
| | **Süd və süd məhsullarının emalı ilə məşğul olan qida obyektləri** | |
| 15. | Qatılaşdırılmış və ya şəkər və ya digər şirinləşdirici maddələr əlavə edilmiş süd və qaymaq; | 0402 |
| 16. | Qatılaşdırılmış və ya qatılaşdırılmamış, şəkər və ya digər şirinləşdirici maddələr əlavə edilmiş və ya əlavə edilməmiş, dad-aromatik maddələr əlavə edilmiş və ya əlavə edilməmiş, meyvə, qoz-fındıq və kakao əlavə edilmiş və ya əlavə edilməmiş ayran, çürümüş süd və qaymaq, yoqurt, kefir və digər fermentləşdirilmiş və ya turşudulmuş süd və qaymaq; | 0403 |
| 17. | Qatılaşdırılmış və ya qatılaşdırılmamış, şəkər və ya digər şirinləşdirici maddələr əlavə edilmiş və ya edilməmiş süd zərdabı; südün təbii komponentlərindən hazırlanmış, şəkər və ya başqa şirinləşdirici maddələr əlavə edilmiş və ya edilməmiş, başqa yerdə adları çəkilməyən və ya daxil edilməyən məhsullar; | 0404 |
| 18. | Pendirlər və kəsmik. | 0406 |
| | **Heyvan mənşəli yağ və piy emalı ilə məşğul olan qida obyektləri** | |
| 19. | Kərə yağı və süddən hazırlanmış digər piylər və yağlar; südlü pastalar. | 0405 |